

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 255 (21.407)

26 dekabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər rayonunda 110 kilovoltluq "Buzovna-2", 35 kilovoltluq "Sarıqaya", "Fatmayı", "Məhəmmədi", eləcə də 221, 219, 86 və 87 saylı yarımstansiyaların açılışlarında iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlətimizin başçısına məlumat verdi ki, "Buzovna-2" yarımstansiyası Buzovna, Zuğulba, Albalılıq qəsəbələrini, bir sıra dövlət əhəmiyyətli qurumları, həmçinin istirahət, turizm, tibb və digər obyektləri fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edir. Yarımstansiyada hər birinin gücü 40 meqavoltamper olan transformatorlar quraşdırılıb. Bu energetika qurğusu ən müasir elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatlaşdırılmış sistem, ölkəmizdə istehsal olunan güc transformatorları və reaktorlarla təchiz edilib. Yarımstansiyada işçilər üçün hər cür şəraiti olan otaqlar tikilib. Paylayıcı qurğular son elmi-texniki yeniliklər əsasında qurulub. İdarəetmə mərkəzində də ən müasir avadanlıqlar quraşdırılıb.

Dövlətimizin başçısına animasiya, sxemlər, dron çəkilişlər, qrafiklər və digər əyani vasitələr əsasında paytaxtda və regionlarda görülən işlər barədə də məlumat verildi. Qeyd edildi ki, ötən qısa müddətdə 7 regional idarəetmə strukturu formalaşdırılıb və ölkəmizin bölgələrində böyük həcmdə yenidənqurma tədbirləri həyata keçirilib.

Sonra Prezident İlham Əliyevə açılışı olan 35 kilovoltluq yarımstansiyalar barədə məlumat verildi.

Dövlətimizin başçısı "Buzovna-2" yarımstansiyasını işə saldı.

## Dövlət qulluqçularının andiçmə mərasimi keçirilib



*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində dövlət qulluqçularının andiçmə mərasimi keçirilib.*

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün bu ilin avqust ayının 6-da elan edilən müsabiqədə müvəffəqiyyət qazanan dövlət qulluqçularının təntənəli andiçmə mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirdi ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsində də aparılan islahatlar uğurla davam etdirilir. Dövlət qulluqçularının fəaliyyətinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması daim diqqət mərkəzində saxlanılır. Muxtar respublika rəhbərinin hərtərəfli qayğısı ilə dövlət orqanları üçün müasir standartlara cavab verən yeni inzibati binaların tikilib istifadəyə verilməsi, nümunəvi iş şəraitinin yaradılması, dövlət idarəçiliyi sistemində yeni texnologiyaların tətbiqi, işində fərqlənən dövlət qulluqçularının təltif edilməsi bunun bariz nümunəsidir.

Dövlət qulluğunun səmərəli təşkili və idarə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə yaradılan komissiyanın vətəndaşların mərkəzləşdirilmiş qaydada dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə geniş imkanlar açdığını mərasim iştirakçılarının diqqətinə çatdıran İsmayıl Qəribli qeyd etdi ki, dövlət qulluğu dövlətin Konstitusiya ilə müəyyən edilmiş məqsədlərini, funksiyalarını reallaşdırmaq üçün vətəndaşların xüsusi təşkil olunmuş fəaliyyəti, onların bu prosesdə praktiki və peşəkar iştirakıdır. Dövlət qulluqçuları dövlət qulluğuna qəbul olunduqları gündən müəyyən vəzifə səlahiyyətlərini həyata keçirməyə başlayırlar.

Komissiya sədri Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun verdiyi hüquqları və üzərlərinə düşən vəzifələri qərəzsiz, vicdanla, qanunauyğun surətdə, vətənin mənafeyi naminə həyata keçirəcəklərinə and içən dövlət qulluqçularının anda sadiq qalacaqlarına əminliyini ifadə etdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Sonra dövlət qulluqçuları təntənəli surətdə and içdilər. Andın mətnini imzalayan dövlət qulluqçularına andiçmə vərəqələri təqdim edildi, xatirə şəkli çəkdirildi, mərasim iştirakçıları Dövlət Bayrağı Muzeyi ilə tanış oldular.

Xatırladaq ki, dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün avqustun 6-da elan edilən müsabiqəyə 36 dövlət orqanından 299 vakant vəzifə çıxarılmış, həmin vəzifələrin tutulması üçün 445 nəfər sənəd təqdim etmişdi. Müsabiqənin 16-29 sentyabr tarixlərində keçirilən test imtahanları mərhələsində 404 namizəd iştirak etmişdi. Keçid balını toplaya bilmiş 161 namizəddən 135-i müsahibə mərhələsində iştirak etmək üçün sənəd təqdim etmişdi. 10-16 noyabrda komissiyanın test mərkəzində keçirilən müsahibə mərhələsində 131 namizəd iştirak etmiş, onlardan 63-ü müvəffəqiyyət qazanmışdı. Müsabiqənin nəticəsindən narazı olan 2 namizəd apelyasiya şikayəti verib, həmin şəxslərin iştirakı ilə müsabiqənin videoyazısına təkrar baxılıb, apelyasiya komissiyası şikayətləri əsassız hesab edərək təmin etməyib. Müsabiqədə müvəffəqiyyət qazanmış 63 namizəddən 60-nın sənədləri iddia etdikləri vəzifəyə təyin olunmaq üçün dövlət orqanlarına göndərilib. Həmin şəxslərdən 59-u vəzifəyə təyin olunub, 1 namizəd isə hüquq-mühafizə orqanında işlə təmin olunduğuna görə təklif olunan vəzifədən imtina edib. 3 namizəd ehtiyat kadr siyahısına salınıb.

✍ **Səbuhi HÜSEYNOV**

*İslam aləmində müqəddəs sayılan günlərdən biri də hicri təqvimi ilə Rəbbiul-əvvəl ayının 12-17-nə təsadüf edən mövlud gecəsidir.*

## Naxçıvanda Məhəmməd Peyğəmbərin mövludu günü qeyd edilmişdir



Mövlud gecəsi İslam dininin banisi, onun təşəkkül tapmasında və bütün dünyaya yayılmasında böyük xidmətləri olan, insanları mənəvi saflığa və yüksək əxlaqi dəyərlərə səsləyən Məhəmməd Peyğəmbərin doğum günüdür. İslamın əziz bayramı kimi bütün müsəlmanlar tərəfindən qeyd olunan mövlud günü ilə bağlı xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: ***"İslam dininin banisi həzrəti Məhəmməd Peyğəmbərin mövlud günü bizim böyük bayramımızdır".***

Dekabrın 25-də Naxçıvan şəhərindəki Cümə məscidində Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə tədbir keçirilmişdir.

Tədbirdə qeyd olunmuşdur ki, insanları humanizm və bəşəri ideyalar ətrafında birləşdirən İslam dini tarixən xalqımızın dünyagörüşünün formalaşmasında və dini-mənəvi dəyərlərimizin inkişafında müstəsna rol oynamışdır. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq Azərbaycanda formalaşan dövlət-din münasibətləri və dini dəyərlərə sadiqlik nümunə gücündədir. Naxçıvan Muxtar Respublikasında da dini-mənəvi dəyərlərin qorunub yaşadılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni məscid binaları tikilir, dindarlar üçün lazımi şərait yaradılır. Hər il muxtar respublikada dini mərasimlərin, xüsusilə Məhəmməd Peyğəmbərin mövludu gününün geniş qeyd olunması da islami dəyərlərə hörmətin daha bir ifadəsidir.

Tədbirdə "Qurani-Kərim"dən ayələr oxunmuş, xalqımıza əminamanlıq, ölkəmizə inkişaf və tərəqqi arzulanmışdır.

Qeyd edək ki, muxtar respublikanın rayonlarında da Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə tədbirlər keçirilmişdir.

**"Şərq qapısı"**

## 2015-ci ildə abonentlər dayanıqlı mavi yanacaqla təmin olunmuşlar

***Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında təbii qaz təminatı mühüm yer tutur. Artıq muxtar respublikada bütün yaşayış məntəqələri qazlaşdırılmışdır. Abonentlərin dayanıqlı mavi yanacaqla təmin olunması sahəsində ardıcıl tədbirlər görülür. Təkcə 2015-ci ildə muxtar respublikada qazlaşdırılan yeni mənzillərin, fərdi evlərin və müxtəlif təyinatlı obyektlərin sayı 1343 olmuşdur. İl ərzində yaşayış məntəqələrində fərdi və ictimai yaşayış evlərinin qazlaşdırılması, korroziyaya uğramış boruların dəyişdirilməsi, tikinti işlərinin aparılması, yolların, su-kanalizasiya xətlərinin çəkilməsi və digər abadlaşdırma işləri ilə əlaqədar olaraq 185 min 961 paqonometr qaz kəmərlərinin yeri dəyişdirilmiş və ya yenilənmişdir.***

Payız-qış mövsümündə istehlakçıları fasiləsiz və təhlükəsiz təbii qazla təmin etmək qarşıda duran ən vacib vəzifələrdəndir. Birliyin kollektivi bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmuş, payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrası təmin edilmişdir. Qış mövsümündə təbii qaza olan tələbatın artması nəzərə alınaraq bütün sistem boyu qaz kəmərlərinə nəzarət edilmiş, texniki baxış zamanı aşkar olunan 25 min 628 sızma və digər nasazlıqlar aradan qaldırılmışdır. Qaz itkisinin qarşısının alınması məqsədilə yeraltı və yerüstü kəmərlər mütəmadi yoxlanılmış, korroziyaya uğrayanlar yeniləri ilə dəyişdirilmişdir. İstismara yararsız sayğaclar da yenisi ilə əvəzlənmiş, nasazlıq və qəzalarla bağlı daxil olan 18 min 547 müraciətə vaxtında baxılaraq qazın nəqli bərpa olunmuşdur. İl ərzində Naxçıvan şəhərindəki mənzillərdə 7 min 793 smartkarttipli qaz sayğacı quraşdırılmışdır.

"Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən normal təzyiqin saxlanılması üçün texnoloji rejimə nəzarət olunmuş, sutka ərzində rejim və sərflərin qeydiyyatı aparılmışdır. Qrafik üzrə müəyyən olunan vaxtlarda avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət göstərilmişdir. Bu sahədə işlərin normal təşkili məqsədilə 485 ədəd yeni qaztənzimləyici, siyirtmə və nəzarət ölçü cihazı quraşdırılmışdır. Həmçinin qaz təsərrüfatında istismarda olan qaztənzimləyici məntəqə və qurğuların texniki pasportlarının hazırlanması işi tamamlanmış, tənzimləyicilərə yerlərdə texniki xidmət göstərilmiş və istehlakçıların sərfiyyat qabiliyyətinə uyğun nizamlanmışdır. Bundan başqa, istismarda olan yeraltı yüksək və orta təzyiqli magistral qaz kəmərlərinin üzərində quraşdırılmış katod elektrokimyəvi mühafizə qurğularına vaxtlı-vaxtında nəzarət olunmuş, xətdəki potensial fərq ölçülərək nəzarətdə saxlanmışdır.

Təhlükəsizlik tədbirlərinə əməl edilməsi və israfçılıq hallarına yol verilməməsi məqsədilə istehlakçılarla aparılan maarifləndirici söhbətlər də 2015-ci ildə görülən əsas işlər sırasında olmuşdur. İl ərzində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və digər təşkilatlarla birlikdə mütəmadi reydlər keçirilmiş, ortaya çıxan nöqsanlar aradan qaldırılmış, əhaliyə təbii qazdan istifadə qaydaları izah olunmuşdur.

Birliyin aid strukturlarının ixtisaslı kadrlarla təminatı da diqqət mərkəzindədir. Ötən dövrdə rayon qaz istismar idarələrində çalışan işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşəsi üzrə kurslar davam etdirilmişdir.

Qaz təsərrüfatının normal fəaliyyətini təmin etmək məqsədi ilə bundan sonra da bütün zəruri tədbirlər həyata keçiriləcəkdir.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

# Kənd təsərrüfatının innovasiya yönümlü inkişafını təmin edən strategiya uğurla həyata keçirilir

## *Muxtar respublikamızda “Kənd təsərrüfatı ili” elan edilən 2015-ci il də bu baxımdan uğurlu oldu*

***“Kənd təsərrüfatı ili” sona çatmaq üzrədir. Bu il də aqrar sahə iqtisadiyyatının innovasiya yönümlü inkişafını təmin edən strategiya uğurla həyata keçirilib. Son illər kənd təsərrüfatının inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurlu icrası, bu sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması təsərrüfatçılara yeni stimul verib, muxtar respublikada əkinçiliyə, həmçinin kənd təsərrüfatının digər sahələrinə marağın artmasına səbəb olub. Bu isə həm də təşəbbüskarlığın artması, fərdi təsərrüfatçılığın inkişafı deməkdir.***

Dövlətimizin bu sahəyə diqqət ayırması heç də təsadüfi deyil. Çünki ölkəmiz yeraltı təbii sərvətlərlə zəngin olsa da, həmin sərvətlərimiz nə vaxtsa tükənəcəkdir. Bu gün hazırda neftin dünya bazarında ucuzlaşması iqtisadiyyatımıza təsirsiz ötüşmür. Bu baxımdan qeyri-neft sektorunun, sahibkarlığın, xüsusilə kənd təsərrüfatı sahəsinin inkişafı böyük əhəmiyyət kəsb edir. Muxtar respublikamızda bu günədək əkilməyən münbit torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, ucu-bucağı görünməyən meyvə bağlarının salınması, heyvandarlığın, quşçuluğun, balıqçılığın inkişafı, istixanaların, yeni soyuducu anbarların istifadəyə verilməsi bir daha onu göstərir ki, Naxçıvanda kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən dövlət siyasəti uğurlu nəticələr verməkdədir.



### *Günün ən aktual məsələsi: ərzaq təhlükəsizliyi*

Bu gün dünyada gedən sürətli qloballaşma prosesləri fonunda baş verən maliyyə böhranları və dünya bazarında neftdən tutmuş ərzağadək bütün məhsulların qiymətlərindəki qeyri-stabillik, ekoloji kataklizmlər ərzaq təhlükəsizliyi məsələsini bir daha gündəmə gətirir. Sevindirici haldır ki, muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasını, kənd təsərrüfatının bütün sahələrinin inkişafı məsələsini ön plana çıxarıb. Bu mənada, ötən dövr ərzində muxtar respublikada qəbul edilmiş 2005-2010-cu illəri əhatə edən kartofçuluğun inkişafı üzrə, 2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və 2012-2015-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası kənd təsərrüfatı sahəsinin dinamik inkişafına təkan verib, ərzaq təhlükəsizliyinin təmin edilməsinə şərait yaradıb.








Kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində aparılmış məqsədyönlü tədbirlər nəticəsində 2015-ci ildə muxtar respublikada 106 min 282 ton taxıl, 82 min 16 ton tərəvəz, 45 min 43 ton kartof, 38 min ton bostan məhsulları, 66 min 465 ton meyvə və giləmeyvə istehsal olunub. Bu da 1995-ci ildəki göstəriciləri müvafiq olaraq 4,5 dəfə, 63,1 dəfə, 112,5 dəfə, 95 dəfə və 3,5 dəfə üstələyib.

Təbii ki, bütün bunlar ərzaq təhlükəsizliyinin təmin olunması baxımından böyük əhəmiyyətə malikdir. Muxtar respublikamızda bu istiqamətdə görülən işləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev deyib: *“Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur”.*

### *Muxtar respublikamızda aqrar sektorun inkişafının davamlılığı təmin olunub*

Muxtar respublikamızda aqrar sektorun inkişafına xüsusi diqqət yetirilir. Bu gün əvvəlki illərdə olduğu kimi, minbir zəhmətlə yetişdirilən məhsul suvarma suyu çatışmazlığı ucbatından tələf olmur. Bu gün yetişdirilən məhsul, əvvəlki illərdə olduğu kimi, tarlada dəyər-dəymazinə satılmır. Bu gün əkinçi yaxşı məhsuldarlığa nail olmaq üçün yüksək reproduksiyalı toxum növlərini, mineral gübrələri haradan və kimdən alacağını yaxşı bilir. Bu gün, əvvəlki illərdə olduğu kimi, sovet dövründən qalma köhnə və yararsız maşın-mexanizmlərdən istifadə olunmur. Ən müasir kənd təsərrüfatı texnikaları əkinçinin xidmətinə verilib. Torpaq mülkiyyətçiləri sərf etdikləri yanacaq və motor yağlarına görə də yardımlar alırlar. Bu isə, nəticə etibarilə, muxtar respublikada kənd təsərrüfatının inkişafında yeni mərhələnin başlanmasına stimul verir.

Babalarımız həmişə “su həyatdır, təknəmizin çörəyidir”, – deyiblər. Çünki su olmayan yerdə yaşamaq, əkinçiliklə məşğul olmaq, məhsul əldə etmək də mümkün deyil. Mütəxəssislərin fikrincə, kənd təsərrüfatının inkişafı, ilk növbədə, mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi və suvarmanın təkmilləşdirilməsi ilə yanaşı, istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə daxil edilməsi ilə mümkündür. Bütün bunlar nəzərə alınaraq muxtar respublikamızda həmin istiqamətlərdə kompleks işlər görülüb, meliorasiya və su təsərrüfatı sahəsində bir sıra mühüm layihələr həyata keçirilib. Ötən dövr ərzində torpaq sahələrinin meliorativ cəhətdən münbitləşdirilməsi və suvarma suyuna olan tələbatın səmərəli ödənilməsi üzrə həyata keçirilən tədbirlər əkin sahələrinin daha da genişlənməsinə, məhsul bolluğuna rəvac verib.

Təsadüfi deyil ki, Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən sonra Babək rayonunda 4 min 364 hektar, Culfa rayonunda 2 min 311 hektar, Şahbuz rayonunda 244 hektar, ümumilikdə isə 6 min 919 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib, su anbarı vasitəsilə suvarılan torpaqların sahəsi 16 min 830 hektara çatdırılıb. Arpaçay və Uzunoba su anbarlarında əsaslı təmir işləri başa çatdıqdan sonra Şərur, Sədərək, Babək və Kəngərli rayonlarında suvarma işləri daha da yaxşılaşdırılıb.

Bu il dekabrın 8-də açılışı olan Vayxır sol sahil suvarma və drenaj şəbəkəsinin istifadəyə verilməsi ilə Babək rayonunun Nehrəm kəndinin 1170 hektar və Culfa rayonunun Bənəniyar kəndinin 1050 hektar olmaqla, ümumilikdə, 2220 hektar torpaq sahəsini ən müasir sistem vasitəsilə suvarmaq mümkün olacaqdır. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində vaxtilə mövcud olmuş yeraltı suvarma şəbəkəsinin 400 hektar ərazini əhatə edən hissəsində bərpa işləri başa çatdırılıb.

Bu mənada, təsadüfi deyil ki, “Kənd təsərrüfatı ili” elan edilmiş 2015-ci ildə 61 min 414 hektar sahədə əkin işləri aparılıb. Bu, görülən kompleks tədbirlərin nəticəsində mümkün olub.

Yuxarıda kənd təsərrüfatı sahəsinin lazımi texnika ilə təmin olunduğunu qeyd etmişdik. Bəli, muxtar respublikamızda bu məsələ xüsusi yaradılmış bir qurumun daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2005-ci il yanvarın 28-də imzaladığı Sərəncam ilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin yaradılması aqrar sektorda nəzərdə tutulan işlərin keyfiyyətlə yerinə yetirilməsinə, sahibkarların əməyinin yüngülləşdirilməsinə, onların lazımi texnika və avadanlıqlarla vaxtında və güzəştli şərtlərlə təmin edilməsinə böyük töhfə verib. Ötən dövr ərzində “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 180 ədədi 2015-ci ildə olmaqla, ümumilikdə, 1685 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. Gətirilmiş texnika və avadanlıqlardan 1370 ədədi torpaq mülkiyyətçilərinə nağd və lizinq yolu ilə satılıb.

### *İstehsalçının maraqlarını təmin edən dövlət qayğısı*

Aqrar sahəyə göstərilən dövlət qayğısına daha bir nümunə: əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə 2015-ci ildə 7 istixana təsərrüfatı, tutumu 480 ton olan 2 soyuducu anbar yaradılıb. Ümumilikdə, muxtar respublikada istixana komplekslərinin ümumi sahəsi 100 min kvadratmetrə, soyuducu anbarların sayı 22-yə, tutumu isə 12 min 730 tona çatdırılıb.

Buradan da göründüyü kimi, aqrar bölmə üzrə prioritet istehsal sahələrinin müəyyənləşdirilməsi, həmin sahələrin digər sahələrlə əlaqəli inkişafı strategiyası uğurla həyata keçirilir. Bununla birlikdə ixrac sahəsində dünya təcrübəsində geniş istifadə olunan müxtəlif formalarla (konsignasiya və sair) bərabər, onun müasirtipli infrastrukturu hesab edilən nəqliyyat, sığorta, informasiya və digər sahələr təkmilləşdirilib. Müxtəlif maddi-texniki təchizat və aqroservis müəssisələri, marketinq xidmətləri, yarmarkalar, saxlama, qablaşdırma, emal müəssisələri və digər strukturlar yaradılıb. Eyni zamanda əsas ərzaq məhsullarının zəruri səviyyədə istehsal olunmasına şərait yaradılıb, yerli və xarici mənşəli ərzaq məhsullarının keyfiyyətinə səmərəli nəzarət mexanizmi tətbiq olunub. Bu və ya digər amillərin iqtisadi fəaliyyət prosesində lazımınca nəzərə alınması kənd təsərrüfatının, bütünlükdə aqrar-sənaye kompleksinin ictimai istehsal əlaqələrinin təkmilləşdirilməsinə, istehsalın həcminin artmasına, aqrar sektorun dinamik inkişafına ciddi əsaslar yaradıb.

Məlumdur ki, aqrar islahatların həyata keçirilməsinin başlıca məqsədi muxtar respublikada bazar iqtisadi münasibətlərinə uyğun xüsusi təsərrüfat formalarının təşkilinə nail olmaq və aqrar bölmənin bütün sahələrində sahibkarlığı hər vasitə ilə inkişaf etdirməkdir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər isə artıq öz səmərəsini verməkdədir.



Daxili bazarın qorunması istiqamətində görülən işlər də muxtar respublikamızda aqrar bölmənin inkişafına əsaslı təsir göstərir. Bu da həqiqətdir ki, iki xarici dövlətlə sadələşdirilmiş gömrük-keçid məntəqələrinin fəaliyyət göstərdiyi regionda daxili bazarın qorunması asan məsələ deyil. Amma xüsusən də məhsul yığımı dövründə aidiyyəti dövlət qurumlarının birgə əməyinin nəticəsində əhalinin sağlamlığına mənfi təsir göstərə biləcək keyfiyyətsiz məhsulların muxtar respublikaya gətirilməsinə yol verilmir. Beləliklə, daxili bazarda yerli istehsalın həcmi getdikcə artır. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkil edilməsi də bu məsələdə öz müsbət rolunu oynayır. Bu halda kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçıları öz məhsullarını birbaşa bazara çıxarmaq imkanı əldə edirlər.

### *Heyvandarlıq ildən-ilə inkişaf etdirilir, məhsuldarlıq yüksəlir*

Ana təbiət muxtar respublikamızdan heç nəyi əsirgəməyib. Naxçıvanın münbit, bərəkətli torpağı, gözəl iqlimi, zəngin bitki örtüyü heyvandarlığın inkişafına imkan verir. Muxtar respublikamızda heyvanların cins tərkibini yaxşılaşdırmaq istiqamətində işlər görülür. Artıq muxtar respublikaya 1937 baş, o cümlədən 89 baş “Şvis”, 535 baş “Simmental” və 1313 baş “Holştin-friz” cinsindən olan damazlıq düyələr gətirilərək lizinq yolu ilə sahibkarlara verilib. Cari ilin ötən dövrü ərzində süni yolla mayalandırılmış mal-qaralardan 3 min 223 baş sağlam bala alınıb.

Muxtar respublikamızda yaradılmış heyvandarlıq komplekslərinin və kiçik sahibkarlıqla məşğul olanların səmərəli fəaliyyəti nəticəsində yüksək məhsuldar heyvanların baş sayı artıb, əhalidə olan yerli mal-qaranın cins tərkibi yaxşılaşıb, nəticədə, heyvandarlıq məhsullarının (ət və süd) istehsalı xeyli çoxalıb. Bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 109,4 min baş, qoyun və keçilərin sayı 662,8 min baş təşkil edib ki, bu da 1 yanvar 1996-cı il tarixə olan göstəriciləri müvafiq olaraq 2 dəfə və 2,4 dəfə üstələyib.

Ötən illər ərzində kənd təsərrüfatının mühüm sahələrindən olan quşçuluğun inkişafı da müntəzəm olaraq dəstəklənib, 64 quşçuluq təsərrüfatı yaradılıb. Muxtar respublikada quşçuluq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Quşçuluq Birliyi yaradılıb. Balıqçılığın inkişafı da diqqətdə saxlanılıb, 14 balıqçılıq təsərrüfatı istifadəyə verilib.

Həyata keçirilən məqsədyönlü tədbirlər məhsul istehsalının artımına təsir göstərib, 1995-ci ilə nisbətən cari ildə kəsilmiş çəkidə ət istehsalı 2,5 dəfə artaraq 13 min 812 tona, süd istehsalı 2,3 dəfə artaraq 80 min 244 tona, yumurta istehsalı 1,9 dəfə artaraq 73 milyon 486 min ədədə, yun istehsalı isə 1,9 dəfə artaraq 1009,6 tona çatdırılıb.

### *Son söz*

Naxçıvan Muxtar Respublikası ekoloji cəhətdən ən az çirklənmiş torpaq sahələrinə malik regiondur. Bu, bizim digər bir üstünlüyümüzdür. Müasir dünyada insanlar ekoloji məsələlərə, ekoloji baxımdan təmiz, geni dəyişdirilməmiş məhsullara daha çox maraq göstərirlər. Bəlkə də, buna görə muxtar respublikada istehsal olunmuş kənd təsərrüfatı məhsulları xarici ölkələrdə də yüksək dəyərləndirilir. Bu məhsullar əvəzolunmaz dad-tamı və keyfiyyəti ilə həmişə seçilib. Təsadüfi deyil ki, bu il Naxçıvandan ixrac olunan kənd təsərrüfatı məhsullarının həcmi artıq 96 milyon 518 min ABŞ dollarından çox olub. Bu, böyük nailiyyətdir.

***Muxtar respublikada kənd təsərrüfatı sahəsində qazanılan uğurlara böyük zəhmətlər hesabına nail olunub. Ancaq reallıq da budur ki, insan zəhməti olmadan heç nə əldə etmək mümkün deyil. Ana torpaq insana “Sən mənə tər ver, mən sənə zər”, – deyir. Zəhmətkeş, işgüzar naxçıvanlılar da aqrar sektor daxil olmaqla iqtisadiyyatın bütün sahələrini davamlı inkişaf etdirmək üçün yorulmadan çalışırlar. Bu baxımdan əminliklə deyə bilərik ki, qurucu rəhbərimizin bizə göstərdiyi doğru yolla daim inamla irəlilədiyimiz, verilən tapşırıqları vaxtında yerinə yetirdiyimiz müddət ərzində muxtar respublikamız həmişə inkişaf edəcək, yüksələcək, regional cazibə mərkəzi kimi öz mövqeyini qoruyacaqdır.***

**Rauf ƏLİYEV**

# Naxçıvanda tanınmış rəssam Əşrəf Heybətovun fərdi sərgisi açılıb

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Azərbaycan Respublikasının Əməkdar rəssamı Əşrəf Heybətovun 65 illik yubileyinə həsr olunmuş fərdi sərgisi açılıb.***

Sərginin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva bildirdi ki, Naxçıvanda mədəniyyət və incəsənət xadimlərinə daim diqqət və qayğı göstərilir. 1999-cu ildən “Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı” fəxri adının təsis edilməsi, 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illik yubileyinin təntənəli şəkildə qeyd olunması, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yeni binasının və burada Bəhruz Kəngərli adına Sərgi Salonunun istifadəyə verilməsi, “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq rəsm festivallarının yüksək səviyyədə keçirilməsi bunun əyani sübutudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il noyabrın 14-də imzaladığı “Rəssamlar Parkının yaradılması haqqında” Sərəncam da muxtar respublikada rəssamlığın inkişafına göstərilən yüksək dövlət qayğısının növbəti nümunəsidir.



Azərbaycanın tanınmış rəssamı Əşrəf Heybətov barədə danışan Ülviyyə Həmzəyeva dedi ki, yubilyar ictimai həyatda da fəallığı ilə daim seçilib. O, 1991-ci ildən YUNESKO Rəssamlar Federasiyasının üzvü, Avropada Azərbaycan Mədəni Xadimləri Assosiasiyasının sədri, Beynəlxalq “Sülh səfiri”, Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü, Rusiya Rəssamlar İttifaqının, Rusiya Şərqşünaslıq Cəmiyyətinin, Azərbaycan- Almaniya Dostluq Cəmiyyəti idarə heyətinin üzvüdür. 60 illik yubileyində ölkə başçısı cənab İlham Əliyev tərəfindən rəssama mənzil hədiyyə edilib. Hazırda bu mənzildə rəssamın əsərləri və fərdi kolleksiyasının bir qismi sərgilənir.

Ülviyyə Həmzəyeva Əşrəf Heybətovu 65 illik yubileyi münasibətilə təbrik etdi, ona yaradıcılıq uğurları arzuladı.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirdi ki, bu gün milli-mənəvi dəyərlərimiz təbliğ edilir, mədəniyyət müəssisələrimiz uğurla fəaliyyət göstərir, mədəniyyətimizin, incəsənətimizin inkişafına xüsusi diqqət göstərilir. Muxtar respublikada yaradılan şəraitin nəticəsində istedadlı rəssamların sayı ildən-ilə artır, onların fəaliyyəti daha da genişlənir, məktəblilərin və gənc istedadların yaradıcılıq nümunələrindən ibarət sərgilər, eyni zamanda rəssamlarımızın fərdi sərgiləri təşkil olunur.

Natəvan Qədimova qeyd etdi ki, hər bir istedadlı rəssamın yaratdığı rəsm əsəri onun həm də geniş mənəvi dünyasını və yüksək intellektini əks etdirir. Bu mənada, Əşrəf Heybətovun əsərləri professional rəssamlığın nümunələri kimi diqqəti cəlb edir. Nazir rəssamı 65 illik yubileyi münasibətilə təbrik etdi, ona yaradıcılıq uğurları arzuladı.

Sonra “Naxçıvan” Universitetinin rektoru, professor İsmayıl Əliyev və Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev çıxış edərək bildirdilər ki, Əşrəf Heybətov uzun illər xaricdə yaşayıb fəaliyyət göstərsə də, Vətəninə, xalqına, milli-mənəvi dəyərlərimizə daim sədaqət nümunəsi göstərib. Rəsm əsərlərində milli ornamentlərin üstünlük təşkil etməsi də bunu sübut edir. Onun dərin məzmunlu, kompozisiya cəhətdən mürəkkəb və eyni zamanda sadəliyi ilə seçilən əsərləri insanlarda xoş təəssüratlar yaradır.

Sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva yubilyara birliyin xatirə plaketini təqdim etdi.

Sonda sərgiyə baxış oldu.

✍ R.ƏLİYEV

---

*Qəmbər Hüseynli – 100*

# Milli musiqi sənəti salnaməsinə yeni səhifələr yazmış sənətkar



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 25 noyabr 2015-ci ildə “Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalamışdır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2 dekabr 2015-ci il tarixdə “Bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”nı təsdiq etmişdir. Tədbirlər Planında muxtar respublikamızda Qəmbər Hüseynlinin 100 illik yubileyinə həsr olunmuş tədbirin keçirilməsi və bəstəkarın əsərlərindən ibarət konsertin təşkili, “Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Qəmbər Hüseynlinin rolu” mövzusunda konfransın keçirilməsi, muxtar respublikanın musiqi məktəblərində bir dərs saatının bəstəkar Qəmbər Hüseynlinin yaradıcılığına həsr olunması, bəstəkarın həyat və yaradıcılığına həsr olunmuş tematik verilişlərin və qəzet materiallarının hazırlanması, keçirilən tədbirlərin işıqlandırılması öz əksini tapmışdır.

Görkəmli bəstəkar Qəmbər Hüseynli 16 aprel 1916-cı ildə qədim Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində dünyaya gəlmişdir. 1925-ci ildə Gəncədəki birinci dərəcəli məktəbdə təhsil almağa başlayanda o, Seyid Əzimin, Abbas Səhhətin, Sabirin, Aşıq Ələsgərin şeirlərini, xalq yaradıcılığımızın inciləri olan bayatıları bilirdi. Bir tərəfdən Gəncənin ədəbi-bədii mühiti, digər tərəfdən Gəncəyə yaxın olan Qarabağın musiqi dünyası onun dünyagörüşünün formalaşmasına böyük təsir göstərmişdir.

1927-ci ildə orta məktəbdə oxuya-oxuya tale onu Gəncə orta ixtisas musiqi məktəbinin tar sinfinə gətirir. Həmzə Əliyevin və Zərif Qayıbovun tar sinfində təhsil alan balaca Qəmbərin istedadını kəşf edən müəllimləri qardaşı Məmmədə onun qeyri-adi musiqi istedadına malik olduğunu əvvəlcədən deməklə, təhsilini Bakıda davam etdirməsini tövsiyə edirlər.

1929-cu ildə Gəncə Pedaqoji Texnikumuna daxil olsa da, Qəmbər Hüseynli həyatını musiqiyə həsr etməyi qərara alır. Muğam və el havalarını, aşıq musiqisini gözəl öyrənən Qəmbər Hüseynli Gəncənin mədəni həyatında fəal iştirak edir.

1934-cü ildə tar sinfini fərqlənmə diplomu ilə bitirir, pedaqoji kollektivin qərarı ilə təhsilini davam etdirmək üçün Bakıya göndərilir. Bakı Musiqi Texnikumunda ona violonçel sinfində təhsil almağı təklif edəndə o, etiraz etmədən bununla razılaşır. Tanınmış musiqi pedaqoqu A.S.Şvartsın violonçel sinfində Qərb musiqi alətində fitri istedadını göstərməyi bacarır. Gənc Qəmbərin musiqi bəstələməyə olan hədsiz marağı texnikumun tanınmış musiqi pedaqoqlarının da diqqətini cəlb edir. Bu illərdə böyük dramaturqumuz Cəfər Cabbarlının sözlərinə “Tellər oynadı” romansını bəstələyir.

1939-cu ildə Qəmbər Hüseynli milli musiqimizin konservatoriyası sayılan Qarabağa, Şuşadakı musiqi texnikumuna direktor vəzifəsinə göndərilir. Bakıdan kənarda yaşayıb işləsə də, o, burada da əhəmiyyətli işlər görməyə müvəffəq olur. Musiqi texnikumunda Qəmbər Hüseynli həm də təşkilatçılıq bacarığını göstərir, aşıq musiqimizin nota köçürülməsinin, ədəbiyyatımızın poetik nümunələrini musiqimizin təsvir vasitələri ilə vəhdətdə sevdirməyin yollarını arayır. Bəstəkar burada dərs deyərkən Süleyman Ələsgərovu kəşf edir. Tardan dərs dediyi Süleyman Ələsgərovla onun arasında dostluq münasibətləri yaranır.

Bir il sonra Bakıya dəvət alan Qəmbər Hüseynli filarmoniyanın nəzdində fəaliyyət göstərən Azərbaycan Xalq Çalğı Alətləri Orkestrində dirijor köməkçisi vəzifəsində çalışır. Böyük bəstəkarımız Üzeyir Hacıbəylinin təvsiyəsi ilə həmin illərdə yaranan Saz çı Qızlar Ansamblının həm təşkilatçısı, həm də bədii rəhbəri olur.

Xalq və aşıq musiqisini gözəl bilən, bacarıqlı təşkilatçı olan gənc Qəmbər Hüseynlini hələ qarşıda çox çətin illər gözləyirdi. Gənc olmasına baxmayaraq, Qəmbər Hüseynli də Stalin repressiyasının acılarını yaşayır. Gənclik illərinin çılğınlığı, bəzən zamanın haqsızlıqlarını görüb fikrini açıq deməsi, Müşfiq, Əhməd Cavad, Cavid kimi böyük şairlərin məhvinə dözə bilmədiyini gizlətməməsi, sovet rejimi ilə razılaşmaması onunla nəticələnir ki, Qəmbər Hüseynli 1943-cü ildə həbs edilir. Ona 10 il həbs cəzası versələr də, 1947-ci ildə həbsdən azad olunur.

Qəmbər Hüseynli 1950-1960-cı illər ərzində fəal yaradıcılıqla məşğul olmağa fürsət tapır. Bəstəkarın mənzil şəraitinin pis olması, şəxsi həyatında olan problemlər, darısqal, pəncərəsiz bir otaqda yaşaması, xəstəlik ona imkan verməsə də, bəstəkar bir-birinin ardınca gözəl mahnılar bəstələyir.

Bəstəkarın “Tellər oynadı”, “İlk məhəbbət”, “Gülə-gülə”, “Ay işığında”, “Dağlar”, “Qonşuda qız sevənin”, “Saz olur”, “Yar yanında günahkaram”, “Gecələr uzanaydı”, “Düşür yadıma”, “Nə vaxta qaldı”, “Sən-sən”, “Ceyran”, “Dolanım başına”, “Tel nazik” və başqa mahnıları bu gün də dillər əzbəridir.

Bəstəkarın mahnı çələngində öz təravəti ilə uşaqlıqdan hamımızın könlünü oxşayan “Cücələrim” mahnısı haqqında bir qədər geniş danışmaq istəyirik. Heç şübhəsiz ki, “Cücələrim” deyəndə Qəmbər Hüseynli, Qəmbər Hüseynli deyəndə bu mahnı yada düşür. Şair Tofiq Mütəllibovla yaradılan bu mahnı əsl sənət incisidir. Dünyanın yüzdən çox xalqının dilinə tərcümə olunan, müxtəlif nəsillərin estetik zövqünü tərbiyə edən ikinci belə bir Azərbaycan mahnısına rast gəlmək çətindir. Dünya şöhrətli aktyor Çarli Çaplini də heyran qoyan bu mahnının melodiyası dünyanın hər yerində sevilə-sevilə qəlblərə yol tapıb. Uzaq Çindən tutmuş Avropaya qədər bütün qitələri dolaşıb “Cücələrim”. Bəstəkarın bir zamanlar dediyi kimi “Cücələrim”in səyahəti uzun olacaq fikri həqiqətə çevrilib. “Cücələrim”in şöhrəti bununla bitməyib.

Sonralar Tofiq Mütəllibov “Cücələrim” pyesini yazıb, Habil Əliyev kamanda bu mahnının musiqisini sənətkarlıqla ifa edib, 1980-ci ildə “Cücələrim” cizgi filmi çəkilib (bəstəkar Vaqif Mustafazadə).

Rusiya kinematoqrafçılarının çəkdiyi dünya şöhrətli “Nu poqodi” (“İndi dayan”) cizgi filmində, başqa xarici teatr tamaşalarında da bizə doğma olan melodiya ilə rastlaşırıq. Təkcə bu mahnı Qəmbər Hüseynlinin bəstəkarlıq istedadını açmaq üçün kifayət edəcək nümunədir.

1961-ci ildə dünyasını dəyişən, bu gün Gəncədə adına park, musiqi məktəbi, mahnı teatrı olan Qəmbər Hüseynli qısa ömründə əsl yaradıcılıq fədakarlığı göstərmiş bəstəkarlardandır desək, səhv etmərik. 300-dən çox əsər içərisində mahnı da, simli kvartet, fortepiano üçün pyeslər, teatr tamaşalarına musiqilər də var. Qəmbər Hüseynli o qədər də uzun ömür yaşamasa da, öz əsərləri ilə gələcək nəsillərə həm də Vətən sevgisi, təbiətimizə, el-obamıza məhəbbət hissi dolu zəngin musiqisini yadigar qoymuşdur. Bu əsərlərin hər biri ifa olunarkən hər şeyə rəğmən onun həyatsevər simasını görürük. Qısa həyat və yaradıcılıq yolunda öz istedadına inanan və güvənən, insanlara musiqisi ilə sevgi və məhəbbət bəxş edən görkəmli bəstəkarın əsərləri bundan sonra da musiqi zövqümüzün estetik gözəlliyinə xidmət edəcək, xatirəsi qəlblərdə yaşayacaqdır.

**Əli RZAYEV**
***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı***

---

***Böyük bədii təsir gücünə malik olan aşıq sənətinin kökləri xalqımızın qədim tarixinə bağlanır. Qəhrəmanlıq, alicənablıq, xeyirxahlıq kimi ali dəyərləri özündə yaşadan, əsrlər keçdikcə cilalanıb müasir səviyyəyə çatan aşıq sənəti folklorumuzun zənginliyinin təsdiqidir. Dərin məzmunlu, zəngin sənət növü kimi aşıq yaradıcılığı Naxçıvanda da qədimdən inkişaf etmişdir.***

# Naxçıvanın aşıq mühiti

Qeyd etmək lazımdır ki, tarix boyu mədəniyyətin yüksək inkişafı, şəhər həyatının varlığı Naxçıvanda aşıq sənətinin geniş fəaliyyət göstərməsinə imkan verirdi. Azərbaycan aşıq sənətinin tarixində mühüm yeri olan, özünəməxsusluğu ilə folklorumuza qiymətli nümunələr bəxş edən İrəvan, Dərələyəz, Urmiya aşıq mühitləri ilə yaxın sənət əlaqəsi yaradan tarixi aşıq mühitlərindən biri də Naxçıvan aşıq mühitidir. Naxçıvan aşıq mühiti keçən əsrlər ərzində söz və saz yaradıcılığı sahəsində özünəməxsusluq qazanaraq aşıq sənətinə qiymətli töhfələr vermişdir.

Naxçıvan aşıqlarının ifaçılıq qabiliyyəti qonşu ölkələrə də yayılmışdı. XX əsrin əvvəllərinə qədər Naxçıvan aşıqları daha çox İran və Türkiyədə məclislərə dəvət olunmuşdur. Onlar getdikləri yerlərə bölgə aşıq mühitinin özünəməxsusluqlarını aparmaqla bərabər, o mühitlərin də çalğı və oxu tərzindəki incəlikləri mənimsəyərək Naxçıvana gətirmişlər.

Naxçıvan aşıqları Dərələyəz, Göyçə, İrəvan, Qarabağ aşıqları ilə də daim əlaqə saxlamışlar.

Naxçıvan şəhəri və ətraf kəndlərdə Aşıq Süleyman, Aşıq Cəlil, Aşıq Məmmədcəfər, Qonçabəyim, Çobankərəli Aşıq Cəfər, Aşıq Fətulla, Aşıq Əsədulla, Aşıq Dədəkişi, Aşıq Qulu, Allahverdi Əliyev, Aşıq Bəhman, Həsən Məmmədəli oğlu və başqa aşıqlar yaşayıb-yaratmışlar. Şahbuz aşıq mühitindən Ululu Kərim, Aşıq Nəcəfalı, Aşıq Mirzalı, Biçənəkli İsmayıl, Aşıq İsmayıl, Aşıq Hidayət, Aşıq Fərrux, Sərraf Qasım, Aşıq Aydın Nərimanoğlu, Aşıq Həsənalının adlarını çəkə bilərik. Şərur-Kəngərli aşıq mühitinin nümayəndələri isə Kosacanlı Ağ Aşıq Allahverdi, Aşıq Nabat, Əli Xanxanım oğlu, Aşıq Həmid, Kazım Abdullayev, Dəvəçi Heydər, Gülalı Məmməd, Sədərəkli Aşıq Yusif, Aşıq Əbülfəz, Aşıq Həmid, Aşıq Bayraməli, Aşıq Ehsan, Aşıq Əzim, Aşıq Həsəndir.

Ordubad-Culfa aşıq mühitində Aşıq Vəli, Ordubadlı Kərim, Aşıq Abbas Dəhri, Məmmədxan Məmmədov, Aşıq Həbib, Aşıq İsmayıl və başqaları ad qazanmışlar.

Naxçıvan aşıqları Azərbaycan dilinin incəliyini, gözəlliyini duyan, sözləri müxtəlif mənalarda bacarıqla işlədən sənətkarlardandır. Onlar dilimizin poetik imkanlarına yaxşı bələd olduqları üçün yaratdıqları əsərlər dillər əzbəri olmuşdur. “Naxçıvanı”, “Naxçıvan gülü”, “Köhnə Naxçıvan”, “Ağır Şərilli”, “Naxçıvan gəraylısı”, “Şahbuz laylası” kimi saz havaları, “Ziyad-Şövkət” (Aşıq Cəfər), “Şahzadə İbrahim” (Qonçabəyim), “İsmayıl və Məstan”, “Qaçaq Qardaşxan və Qırçın” (Biçənəkli İsmayıl), “İslam və Ceyran”, “Fərhad və Nazlı” (Aşıq İslam), “Kərim-Süsən”(Ordubadlı Kərim), “Novruz” (Aşıq Hatəm), “Sail və Sənəm” (Yamin İsmayıl), “Ağ Aşıq Süsənbər”, “Hüseyn-Reyhan” (Kosacanlı Ağ Aşıq Allahverdi) kimi dastanlar Naxçıvanda saz-söz varlığının uzun bir zaman ərzində sənət mühiti şəklində yaşadığını göstərir.

XIX əsr Azərbaycan aşıq sənətinin məşhur ustaları Aşıq Alı, Aşıq Ələsgər və Aşıq Hüseyn Şəmkirlinin Naxçıvana bir neçə dəfə səfər etmələri, yerli sənətkarlarla birlikdə sənət məclisləri qurmaları həmin dövrdə bu bölgənin saza-sözə, aşığa münasibətini göstərir.

Muxtar respublikamızda xalqımızın tarixini və milli-mənəvi dəyərlərini özündə əks etdirən xalq yaradıcılığına göstərilən yüksək diqqət və qayğı nəticəsində onun əsas qollarından biri olan aşıq sənəti də inkişafa qovuşmuşdur. Bu mənada, Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 7 fevral 2009-cu il tarixli Sərəncamının adını xüsusilə qeyd etmək lazımdır. Sərəncama əsasən, muxtar respublikada Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlamışdır. Qısa müddət ərzində Aşıqlar Birliyinin üzvləri qardaş Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasında olmuş, Bakı şəhərində keçirilən “Telli sazın meydanı” məclisində muxtar respublikanı uğurla təmsil etmişlər. Bundan başqa, minilliklərdən üzübəri gələn mənəvi zənginlik, xalqın istək və arzularının təcəssümü olan saz havaları Novruz bayramı şənliklərində geniş yer tutur.

Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan aşıqların əsərlərinin toplanması, nəşri və tədqiqi sahəsində görülən işlər bölgə aşıq mühitinin özünəməxsusluğunun, onun qədim diyarın tarixi taleyi və coğrafiyası ilə bağlı cəhətlərinin üzə çıxarılmasında mühüm rol oynayır.

**Təranə QƏBULOVA**
***“Naxçıvan” Universitetinin əməkdaşı***

# 2015-ci ilin quruculuq ərməğanları
## *Müasir təhsil ocaqları*


*Babək rayon Nehrəm kənd 2 nömrəli tam orta məktəb*


*Culfa rayon Bənəniyar kənd tam orta məktəbi*


*Ordubad şəhər 3 nömrəli tam orta məktəb*


*Ordubad rayon Tivi kənd tam orta məktəbi*


*Şərur rayon Axaməd kənd tam orta məktəbi*


*Babək qəsəbə 2 nömrəli tam orta məktəb*


*Şərur rayon Kürçülü kənd tam orta məktəbi*


*Şərur rayon Püsyan kənd tam orta məktəbi*


*Naxçıvan şəhər 9 nömrəli tam orta məktəb*

***Hər hansısa bir regionun inkişafı, ilk növbədə, o yurdun təhsilli insanlarından asılıdır. Əgər təhsilli insanlar, mütəxəssislər varsa, bütün sahələrin inkişafına nail olmaq mümkündür. Sevindirici haldır ki, bu gün Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. Son illərdə bütün sahələr kimi, təhsil sahəsi də əsl intibaha qovuşub. Yeni inkişaf yoluna qədəm qoyan muxtar respublikamızda təhsil sahəsinə də böyük qayğı göstərilir. Müasir tələblər səviyyəsində inşa olunan təhsil müəssisələri bu sahənin inkişafına yeni üfüqlər açır.***

***Məktəb tikintisi təkcə Naxçıvan şəhəri və ya rayon mərkəzləri ilə məhdudlaşmır, həmçinin ucqar dağ və sərhəd kəndlərində də ən müasir tələblərə cavab verən, gələcəyə hesablanmış yeni məktəb binaları tikilir. İstifadəyə verilən məktəblərin hər birində müasir texniki avadanlıqlar quraşdırılıb, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılıb, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarına verilib. Başa vurmaqda olduğumuz 2015-ci ildə muxtar respublikada 13 məktəb binası tikilərək və ya əsaslı təmir edilərək istifadəyə verilib.***

**2016-cı ilin məhsulu üçün Naxçıvan Muxtar Respublikası üzrə payızlıq taxıl səpininə dair məlumat**

hektarla

| № | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Naxçıvan şəhəri | 1080,0 | 1026,0 | 54,0 |
| 2. | Şərur rayonu | 7436,0 | 7320,0 | 116,0 |
| 3. | Babək rayonu | 8943,0 | 7785,0 | 1158,0 |
| 4. | Ordubad rayonu | 1878,0 | 1310,0 | 568,0 |
| 5. | Culfa rayonu | 4318,0 | 4050,0 | 268,0 |
| 6. | Kəngərli rayonu | 3783,0 | 3135,0 | 648,0 |
| 7. | Şahbuz rayonu | 1134,0 | 1014,0 | 120,0 |
| 8. | Sədərək rayonu | 1726,0 | 1152,0 | 574,0 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | 30298,0 | 26792,0 | 3506,0 |

## Növbəti humanitar aksiya başa çatdı



***Muxtar respublikada səhiyyə xidmətinin səviyyəsinin ilbəil yüksəldilməsinin nəticəsidir ki, əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə nail olunub.***

Son illərdə tibb ocaqları üçün yeni binalar tikilib istifadəyə verilir, həmin obyektlərin maddi-texniki bazaları gücləndirilir. Paytaxt Bakı şəhərindən yüksəkixtisaslı həkim briqadaları mütəmadi olaraq muxtar respublikaya dəvət olunur, aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsi diqqət mərkəzində saxlanılır.

Bakı şəhərində fəaliyyət göstərən Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 24 nəfərdən ibarət həkim briqadasının dekabrın 22-25-də Ordubad Rayon Mərkəzi Xəstəxanasında əhalini tibbi müayinədən keçirməsi bu tədbirin davamlı xarakter almasının göstəricisidir. Oftalmoloq Rasim Orucov, travmatoloq Cavid Musazadə, cərrahlar Sahib Hüseynov, Toğrul Məhərrəmov, anestezioloq-reanimatoloq Elşən Ağayev, kardioloq Samirə Məmmədli, ginekoloqlar Kənarə Abdullayeva, Aytəkin Hacızadə, otolarinqoloq Məzahir Quliyev, nevropatoloq Qabil Bayramov, allerqoloq Reyhan Paşayeva, endokrinoloq Aynur Hümmətova və başqalarının səyi ilə aksiyanın keçirildiyi 3 gün ərzində 2520 pasiyent profilaktik tibbi müayinə ilə əhatə edilib, cərrahi müdaxiləyə ehtiyacı olan 72 xəstə üzərində LOR, göz və ümumi cərrahi əməliyyatlar aparılıb.

Aksiya zamanı pasiyentlər həmçinin hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar. Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də aksiyada fəal iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 958